

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 avqust 2024-cü il №59 (2870) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün avqustun 8-də Qazaxıstana səfərə gəlib.*

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər qarşıladılar.

* * *

Avqustun 8-də Qazaxıstanın paytaxtı Astana şəhərində "Veçer drujbı" adlı qala konsert keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Avqustun 8-də Qazaxıstanın paytaxtı Astanada dövlət başçılarının qeyri-rəsmi şam yeməyi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Prezident İlham Əliyev Astanada Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təltif olunması mərasimində iştirak edib

Avqustun 9-da Astanada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

* * *

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib.

Azərbaycan Prezidenti tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə, Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür etmək istərdim.

Ötən il mən Tacikistan Prezidenti Emoməli Şaripoviç Rəhmonun dəvəti ilə Düşənbədə keçirilən Sammitdə iştirak etmişəm.

Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu, son iki ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.

Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir.

Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir.

Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm.

Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.

Qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır.

**(Ardı 2-ci səhifədə)**

## Birinci vitse-prezident Mehriban Əliyeva Qaşım Maqomedovun Olimpiya Oyunlarının gümüş medal mükafatçısı olması ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Qaşım Maqomedovun Olimpiya Oyunlarının gümüş medal mükafatçısı olması ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Paris Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı, taekvondoçu Qaşım Maqomedovu səmimi-qəlbdən təbrik edirəm! Gərgin əməyinə, yenilməz iradəsinə və qələbə əzminə görə idmançımıza təşəkkür edir, ona möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva Həsrət Cəfərovun Olimpiya Oyunlarının bürünc medal mükafatçısı olması ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Həsrət Cəfərovun Olimpiya Oyunlarının bürünc medal mükafatçısı olması ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Ura! Növbəti qələbəmiz! Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov bürünc medal qazandı! İdmançımızı səmimi-qəlbdən təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərə təşəkkürümü bildirirəm!"

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri



(Əvvəli 1-ci səhifədə)

Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondları yaradılıb.

Həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir.

Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm.

Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Avqustun 9-da Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə rəsmi qəbul verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.





* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri avqustun 9-da başa çatıb.

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Cənubi Qafqaz regionunu kənar təhdidlərdən qorumaq gücündədir

Cənubi Qafqazda tarixi transformasiya, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar zəifləyir, yeni əməkdaşlıq formatları meydana gəlir. Prezident İlham Əliyevin 2-ci Şuşa Qlobal Media Forumunda vurğuladığı kimi, bu tarixi gedişata müdaxilə etmək, prosesi öz maraqlarına uyğun şəkildə dəyişmək istəyən güc mərkəzləri var. Regiona yönəlik ekspansiyanı gücləndirən mərkəzlər müxtəlif üsullardan istifadə edərək hadisələrin təbii gedişatını dəyişmək istəyirlər. Ermənistanda və Gürcüstanda baş verən son proseslər bu ideyanı bir daha təsdiqləyir. Amma dövlətimizin başçısı onu da vurğuladı ki, indi Cənubi Qafqazda müharibədən qalib çıxmış, ərazi bütövlüyünü və suverenliyini təmin etmiş qüdrətli Azərbaycan dövləti var. Bu gün Azərbaycan təkcə öz ərazisini və suverenliyini deyil, həm də ümumilikdə regionu kənar müdaxilələrdən qorumaq gücündədir. 2020-ci ildən etibarən Azərbaycanın gerçəkləşdirdiyi proseslər, hərbi və diplomatik müstəvidə qazandığı nailiyyətlər bu qənaəti daha da gücləndirir.

Bu sözləri Mətbuat Şurasının İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli AZƏRTAC-a açıqlamasında söyləyib.

O bildirib ki, Azərbaycanın regionda əsas söz sahibi olmasının göstəricilərindən biri insan resursları və iqtisadi inkişafdırsa, digəri də güclü ordusudur. Cənubi Qafqazın iqtisadi potensialının 80 faizə qədəri Azərbaycanın payına düşür. Paralel olaraq, Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Mərkəzi ofisi ABŞ-da yerləşən "Global Fire Power" təşkilatı qeyd edir ki, Azərbaycan Silahlı Qüvvələri nəinki Cənubi Qafqazın, həm də dünyanın ən güclü orduları sırasında yer alır. Təşkilat 2024-cü il üzrə hesabatını hərbi bölmələrin sayı, maliyyə, logistika imkanları və digər 60 göstəricisi əsasında hazırlayır. Həmin siyahıda Azərbaycan 59-cu, Gürcüstan 84-cü, Ermənistan isə 102-ci yerdə qərarlaşıb. Bu göstərici ilə ölkəmiz ordusunun gücünə görə həm Ermənistandan və Gürcüstandan, həm də dünyanın bir sıra tanınmış dövlətlərindən öndədir.

"Nəzərə almaq lazımdır ki, Azərbaycan Ordusu digər ölkələrlə müqayisədə təkcə müasir texniki təminatı, say və logistik imkanları ilə deyil, həm də praktiki döyüş bacarıqları ilə fərqlənir. Təsadüfi deyil ki, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsini ordumuz ən modern yeniliklərlə həyata keçirib. Minimal itkilər, sürətli hərəkət və böyük qələbələr Vətən müharibəsini xarakterizə edən əsas əlamətlərdir. Müqayisə üçün qeyd edək ki, Vətən müharibəsində Azərbaycan Ordusu 3 min nəfərə yaxın şəhid verib. Ermənistanın hərbi heyətinin itkiləri isə 10 min nəfərdən artıq olub. Özlərinin etiraf etdiklərinə görə, bu müharibədə Ermənistanın 4520 hərbi qulluqçusu öldürülüb, 1600 hərbçi itkin düşüb, 9094 hərbi qulluqçu yaralanıb. Yəni, Ermənistan dörd dəfə artıq itki verib. Onu da nəzərə almaq lazımdır ki, müstəqil müşahidə mərkəzləri Ermənistanın öldürülən hərbçilərinin sayının 4520 nəfər deyil, 6300 nəfər olduğunu qeyd edirlər. Məlumat üçün qeyd edək ki, 44 günlük savaşdan fərqli olaraq, Birinci Qarabağ müharibəsi dönəmində 11 min 557 nəfər Azərbaycan hərbçisi şəhid olub. Əlavə olaraq, torpaqlarımız işğala məruz qalıb. Təkcə bu nümunəyə əsaslanaraq demək olar ki, Vətən müharibəsinə qədər Azərbaycan Ordusu kifayət qədər güclənib, peşəkar orduya çevrilib və ən son texnikalarla təchiz edilib. Azərbaycan Silahlı Qüvvələri 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirlərini də eyni sərişdə ilə başa vurdu. Minimal itki və sürətli manevrlər nəticəsində separatçılar cəmi bir sutka ərzində darmadağın edildi, dövlət suverenliyimiz tam bərpa olundu", - deyə ekspert vurğulayıb.

M.Ələsgərli əlavə edib ki, Azərbaycan Vətən müharibəsi və antiterror tədbirləri zamanı təkcə döyüş meydanında deyil, həm də diplomatik müstəvidə ciddi savaş aparıb və nailiyyətlər qazanıb. Məsələn, 44 günlük müharibə dönəmində və ondan sonra Fransa Azərbaycana qarşı diplomatik savaş açıb, təsir dairəsində olan media qurumlarını, transmilli media subyektlərini qarayaxma kampaniyasına cəlb edib. Bu vasitə ilə qlobal ictimai rəyi Azərbaycana qarşı yönəltməyə çalışıb. Fransa, həmçinin təmsil olunduğu beynəlxalq platformalarda qondarma müzakirələr açıb, ölkəmizin adına kölgə yaxmaq istəyib.

Eləcə də Fransa 2020-ci ildə hələ müharibənin davam etdiyi dövrdə Qarabağ məsələsini BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxararaq, Azərbaycana təzyiq göstərmək, ölkəmizi özünün haqq işini tamamlamaqdan yayındırmaq istəmişdi. Paris 2022-ci ilin dekabrında "Laçın yolu" mövzusunu əsas götürərək, Azərbaycan məsələsini BMT müstəvisinə çıxarmaq üçün növbəti dəfə təşəbbüs göstərmişdi. Eyni hərəkətlərini 2023-cü ilin avqust ayında da təkrarladı. Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin guya "blokadaya salınması" barədə əsassız iddialar irəli sürdü. Bölgədə yaşayan ermənilər üçün yalançı humanitar yardım karvanı göndərməklə "humanitar böhran" kampaniyası başlatdı. 2023-cü ilin oktyabr ayında BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycan əleyhinə birgə bəyanat verdirməyə təşəbbüs göstərdi. Amma Azərbaycan bu və buna bənzər bütün təşəbbüsləri iflasa uğratdı. Azərbaycanın uzun müddət apardığı müstəqil və balanslı xarici siyasət kursu öz bəhrəsini verdi. Ölkəmiz dünyanın bütün qitələrində, fərqli qütblərdə yerləşən tərəqqipərvər ölkələrdən dəstək alaraq haqq işini tamamlaya bildi.

"Hazırda Azərbaycan müharibə mərhələsini aşaraq zəruri iqtisadi-siyasi layihələrə qoşulub. Bu gün Azərbaycanın həmmüəllif olduğu regional və beynəlxalq layihələr onu dünya üçün əvəzedilməz ölkəyə çevirir. İndi Azərbaycan Qərb ölkələri üçün əhəmiyyətli enerji qaynaqlarından biri, həmçinin Avropa ilə Asiya arasında ən mühüm nəqliyyat qovşağıdır. İki qitəni birləşdirən ən sərfəli nəqliyyat dəhlizləri Azərbaycan ərazisində layihələndirilib. Bu dəhliz Avropa və Asiya ilə yanaşı, bütövlükdə dünya üçün əhəmiyyət daşıyır.

Amma Azərbaycan adı dünyada təkcə nəqliyyat dəhlizləri və ya enerji layihələri üzrə diqqət çəkmir. Son dörd ildə baş verən proseslər Azərbaycanın adını region hüdudlarından kənara çıxan, "orta güc" kateqoriyasına daxil olan ölkə kimi tanıdıb. Çox mühüm geopolitik proseslər mövcuddur ki, Azərbaycan orada açar nöqtələrdən biridir. Geopolitik güc mərkəzlərinin Cənubi Qafqaz və ətraf regionlar üzrə layihələrinin taleyi həm də Azərbaycanın iradəsindən asılıdır. Azərbaycan iqtidarı bu amilləri ölkəmiz üçün üstünlüyə çevirə bilir", - deyə M.Ələsgərli bildirib.

Təlim

# Məsafənin dəqiqliyinin önəmliliyi

*Hər bir ixtisasın özünəməxsus önəmliliyi və özəlliyi vardır. Artilleriyada atəşin idarə edilməsi ayrıca bir sahədi. Artilleriyanın idarəetmə cihazı topdan hədəfə olan məsafəni müəyyən edir. Atəşin uğurla başa çatması üçün məsafənin dəqiqliyi vacibdir. Artilleriyaçıların məşğələ yerində baş leytenant Süleyman Ağayevlə görüşdük. O tabeliyində olan şəxsi heyətə dərs cədvəlinə uyğun olaraq məşğələ keçirdi. Heyətlər ərazidə təhkim edilmiş topların yanında idi. Əsgərlər silahı verilən komandalara uyğun səfər vəziyyətindən döyüş vəziyyətinə gətirirdilər. Bir qədər aralıda tək əsgər qarşıdakı masa üzərində çalışırdı, silahdan hədəfə olan məsafəni müəyyən edirdi.*



Hesablayıcı əsgər Emin Məmmədov bir ilə yaxındır ki, Quba rayonundan ordu sıralarına çağırılıb. Hərbi xidmətə başladığı ilk gündən top heyətinin üzvüdür. Bir neçə aydan sonra hesablayıcı vəzifəsinə təyin edilib.

Baş leytenant Süleyman Ağayev dedi ki, əsgər Emin Məmmədov bacarıqlı, intizamlı əsgərdir. O, hərbi bilik və bacarıqları tez və yüksək səviyyədə mənimsəyib. Artilleriyaçı ixtisası çeviklik və dəqiqlik tələb edir. Hesablayıcı kimi əsgər Emin Məmmədov vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Ona verilən hədəflərə olan məsafəni dəqiq çıxarmaqla təlim atışında top heyəti tərəfindən atəşin uğurla yerinə yetirməsini təmin edir.

Əsgər Emin Məmmədov dedi ki, hərbi xidmətə başladığım ilk gündən qarşıya məqsəd qoymuşam ki, Vətən qarşısında övladlıq borcunu, şərəflə yerinə yetirim, komandirlərin verdiyi əmrləri vaxtında, dəqiq icra edim, onların öyrətdiklərini dərindən mənimsəməklə nümunəvi xidmətimlə fərqlənim.

Əsgərə verilən topdan hədəfə olan məsafənin çıxarılmasının qısa müddətdə dəqiq yerinə yetirilməsini zabit Süleyman Ağayev yoxladı. Bir neçə bu cür tapşırığın uğurla icra edildiyinin şahidi olduq.

Əsgər Emin Məmmədova xidmətdə uğurlar arzulayıb təlim nöqtəsindən ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Tibb xidməti

# "Hər iki müqəddəs peşənin sahibi olmağımla qürur duyuram"

*Azərbaycan Ordusunda tibb xidməti də daim diqqət mərkəzində saxlanılır. Savadlı və təcrübəli hərbi həkimlərimiz qısa müddətdə səhhətində problem yaranan əsgərlərimizin sağlamlığını bərpa edirlər. "N" hərbi hissəsinin tibb məntəqəsində xidmət edən peşəkar tibbi personal da hər zaman belə xidmət edir.*



Digər hərbi hissələrdə olduğu kimi, burada da tibb məntəqəsində yaradılan yüksək şərait, səliqə-sahman və təmizlik var. Qəbul otağında əsgər həkim yoxlanışından keçirdi. Hərbçiyə lazımi profilaktik tədbirləri gördükdən sonra hərbi həkim tibb xidməti leytenantı Əkrəm Əlili ilə peşəsi barədə söhbətləşəndə öyrəndim ki, o, Cəlilabad rayonunda anadan olub. Bakı Atatürk liseyində orta təhsil aldıqdan sonra hərbi həkim olmaq istəyib. Tibb Universitetinin Hərbi Tibb fakültəsinin məzunudur. Dedi ki, həkimlik və hərb sənətinin nə qədər ağır peşə olduğunu bilsə də, bu şərəfli yolu sevgilərlə seçib.

"Hərbçi olmaq qədər həkimlik də məsuliyyətli peşədir. Mənim kiçik yaşlarımdan hərbi formaya və həkimlərin geyiminə marağım olub. Zaman keçdikcə bu maraq düşüncəmə hopdu, sevgiyə çevrildi, həm həkim, həm də zabit olmaq istədiyimin fərqinə vardım. Vətənimizi və onun müdafiəçilərini qorumaq istəyi daim mənə stimul verib. Bu gün hər iki müqəddəs peşənin sahibi olmağımla qürur duyuram".

Tibb xidməti leytenantı Ə.Əlili onu da qeyd etdi ki, tibb məntəqəsinə müraciət edən xəstələrin hamısına xüsusi diqqət göstərilir. "Onlara hər cür xidmət göstərmək bizim borcumuzdur. Biz bu borcu layiqincə yerinə yetiririk. Müraciət edən xəstələrin hamısını dinləyir, onlara dəqiq diaqnoz qoyur, sonra müalicəyə başlayırıq. Məntəqəmizin müasir tibbi avadanlıqlarla təchiz edilməsi, müraciət edən xəstələri tez bir zamanda müalicə edib, xidməti yerlərinə göndərməyə imkan yaradır".

Əsgərlər də yaradılan şəraitdən məmnun olduqlarını, həkimlərin onlara qayğı ilə yanaşdıqlarını bildirdilər. Əsgər Xəyal İsgəndərov tibb məntəqəsinə ilk dəfə müraciət etdiyini dedi, o qeyd etdi ki, həkimlər və tibb personalı müalicə və müayinə üçün müraciət edənlərə həmişə diqqət və qayğı ilə yanaşır, lazımi köməklik göstərirlər.

Əsgər Kənan Yusubov göstərilən qayğıdan razılığını bildirdi. "İki gündür burada müalicə alıram. Həkimlər bizə doğma münasibət bəsləyir, qayğı ilə yanaşırlar. Özümü yaxşı hiss edirəm. Bu gün bölməyə qayıdacağam".

Hərbi hissədə müşahidə olunan yüksək şərait, hər cür tibbi avadanlıqla təchiz olunmuş tibb məntəqəsi bir daha sübut edir ki, hərbi qulluqçularımız bütün növ təminatlarla tam təmin olunmaları üçün həyata keçirilən islahatlar səmərəsini verib...

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

Medallı igidlərimiz

# Bu qələbəni bizə Vətənə sevgi yaşatdı

*On illərlə işğal altında qalan torpaqlarımızın indi azad olması sevincini hər bir azərbaycanlıya ordumuz yaşatdı, indi də yaşadır. Qarabağımızın həmayili olan Şuşamızın dağlarının dumanı dağılıb, indi Cıdır düzündə açan çiçəklər göz oxşayır. Bunlara görə də xalq ordumuza minnətdardır.*



Vətən müharibəsində ordumuz döyüş tapşırıqlarını vaxtında, məsuliyyətlə, dəqiqliklə yerinə yetirirdi. Yüksək nizam-intizam və peşəkarlığı ilə düşmənin təşvişə düşməyinə səbəb olurdular. Düşmənin yaratdığı maneələrin öhdəsindən asanlıqla gəlirdilər. Cəsur döyüşçülərimiz yüksək döyüş əzmi və qələbə ruhuyla Azərbaycanın ərazi bütövlüyünü tam təmin etdi.

"N" hərbi hissəsində xidmət edən mayor Samir Hüseynov 1986-cı ildə Ermənistan Respublikası Amasiya rayonunda anadan olub. Yeniyetməliyindən həyatını orduyla bağlamaq istəyib. 2004-cü ildə orta məktəbi bitirib, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. Motoatıcı ixtisasına yiyələnib. 2008-ci ildə "leytenant" hərbi rütbəsi ilə hərbi xidmətə başlayıb. Vətən müharibəsində iştirak edib: "Bu günü hamımız gözləyirdik. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə tarix yazan oğullarımız torpaqlarımızı işğaldan azad etdi. 8 noyabr Zəfər günü kimi tarixləşdi. Haqq savaşımızda bütün dünya xalqımızla ordumuzun birliyinin nümunəsinin şahidi oldu." Zabit cavabında vurğuladı ki, düşmənə qarşı ağır döyüşlərdə iştirak edən igidlərimiz haqqında nə qədər danışsaq, azdır. Onların hər biri bu tarixi Zəfərin zərrəsidir.

Mayor Samir Hüseynov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Vətən müharibəsi xalqımızın haqq savaşı oldu. Xalqımız əmin oldu ki, Azərbaycan əsgəri bundan sonra da xidməti ilə Vətənin toxunulmazlığını təmin edəcək.

İkinci Qarabağ müharibəsində ordumuzun qazandığı qələbə əbədi olaraq qalacaq. Şəhidlərimizin ruhları daim ehtiramla xatırlanacaq, gələcək nəsillər vətənpərvərlik ənənələrini daim yaşadacaqdır.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətənpərvər oğul

Hər bir insanın Vətənə sevgisi ailədə, oxuduğu məktəbdə formalaşır. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu çavuş Məzahir Tərlan oğlu Adıgözəlov Qazaxıstan Respublikasında anadan olub, iki yaşında valideynləri ilə birgə doğma Azərbaycana köçüb. O, Vətənə qayıdanda Ermənistan silahlı birləşmələrinin Azərbaycanın ərazi bütövlüyünə qarşı hücumlara başlamışdı. Qarabağ iqtisadi zonasında və Ermənistanla sərhədlərdə vəziyyət getdikcə mürəkkəbləşirdi. Havadarlarından dəstək alan ermənilər bütün gücü ilə Azərbaycanın ermənilərin məskunlaşdığı Qarabağ bölgəsini Ermənistana birləşdirmək istəyirdi. Ermənistanla Azərbaycan arasında münaqişə daha da gərginləşərək müharibə həddinə yaxınlaşırdı. Azərbaycanın vətənpərvər oğulları könüllü olaraq Qarabağda və sərhəd rayonlarında erməni silahlı qüvvələrinin hücumlarının qarşısını almaq üçün özünümüdafiə batalyonları yaratmışdılar. Sinələrini Vətənə sipər edən vətənpərvər oğullarımız torpağı, xalqı düşməndən müdafiə edirdilər.

Xaçmaz rayonunun Xudat şəhərində böyüyən Məzahir də illər keçdikcə münaqişə haqqında çox oxumuşdu, düşmənə qarşı onda da qisas hissi formalaşmışdı. Ailədə valideynlərinin Qarabağ müharibəsi ilə bağlı söhbətlərini çox eşidirdi, Azərbaycan ərazilərinin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal edildiyini də, bir milyondan artıq soydaşımızın doğma ata-baba yurdundan didərgin salındığını da valideynlərindən eşitmişdi. Orta



məktəbdə oxuduğu illərdə o da erməni vəhşiliyi barədə daha çox məlumatlar əldə etmişdi, torpaqlarımızı işğaldan azad etmək üçün o da borcunu yerinə yetirməyə hazır idi.

Məzahir orta məktəbi bitirəndən sonra əsgəri xidmətini cəbhə bölgəsində yerinə yetirmişdi. Düşmənlə təmas xəttində xidmət edən çavuş Məzahir Adıgözəlov döyüş növbətçiliyinə çıxanda qarşıdakı düşmənin bütün fəaliyyətini müşahidə edirdi. Müddətli həqiqi hərbi xidmətdən sonra Vətənə xidmətini ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirmək qərarına gəlmişdi.

Çavuş Məzahir Adıgözəlovun hərbi xidmətinin ilk illəri cəbhə bölgəsində keçib. Azərbaycanın hərb tarixinə Aprel döyüşləri kimi düşən döyüşlərdə Ağdam istiqamətində düşmənin hücumunun qarşısının alınmasında iştirak edib. Xidməti dövründə müxtəlif kurslara cəlb olunan Məzahir daha yüksək göstəricilər qazanıb.

İkinci Qarabağ müharibəsində və antiterror tədbirləri, həmçinin digər hərbi əməliyyatlar zamanı Məzahir Adıgözəlovun xidmət etdiyi bölmələr də döyüşlərə cəlb olunub. Həmişə Vətənə övladlıq borcunu uğurla yerinə yetirməyi qarşısına məqsəd qoyan çavuş bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib.

Komandirlərin və silahdaşlarının rəğbətini qazanan çavuş Məzahir Adıgözəlov deyir ki, Vətənimizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunduğu və bu yolda bir döyüşçü kimi onun xidmətinin də keçdiyi üçün məmnundur. Bundan sonra da Vətən, xalq qarşısında övladlıq borcunu şərəflə davam etdirəcək, kiçik komandir kimi üzərinə düşən vəzifəni vicdanla yerinə yetirəcəkdir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Mexanikləşdirilmiş bölmələrin döyüş qabiliyyəti inkişaf etdirilir



Cari ilin hazırlıq planına əsasən, Quru Qoşunlarının mexanikləşdirilmiş bölmələri ilə döyüş atışlı taktiki təlimlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ümumqoşun poliqonunda keçirilən təlimlərdə əsas diqqət ekipajların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilir.

Azərbaycan Ordusunda bölmələrin döyüş hazırlığını və şəxsi heyətin peşəkarlığını daim yüksək səviyyədə saxlamaq məqsədilə keçirilən tədbirlər davam etdirilir.

# “Qarabağın azadlığı: Tarix yazan oğulların şücaəti”

Azərbaycan torpaqlarında döyüşlər olub, neçə-neçə qəhrəmanlıq dastanı yazılıb. Vətən sevgisi hər bir azərbaycanlının qəlbində kök salmış, ruhuna hopmuşdur. Tariximizin elə bir səhifəsi yoxdur ki, onu varaqladıqca qarşımıza Vətən uğrunda canından keçən oğulların adı çıxmasın. Onlar bizim qürurumuz, tariximizin əbədi qəhrəmanlarıdır. 44 günlük Vətən Müharibəsi bu şanlı tarixdə yeni bir səhifə açdı. Bu müharibədə Azərbaycanın igid oğulları Vətən sevgisinin nəyə qadir olduğunu bir daha sübut etdilər. Bu müharibə Azərbaycan xalqının iradəsini, ordusunun gücünü və bir millətin öz torpağını qorumaq üçün nələrə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu müharibənin əsl qəhrəmanları, Vətənimizə qələbə sevincini yaşadanlar şücaətli əsgərlərimizdir.

27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Ordusunun yüksək döyüş ruhunu və hazırlığını nümayiş etdirdi. Düşmənin illərdir möhkəmləndirdiyi müdafiə xətləri, ordumuzun peşəkarlığı və qətiyyəti qarşısında tab gətirməyərək yerlə-yeksan oldu. Vətən müharibəsinin ən yaddaqalan və həlledici anlarından biri, müqəddəs duyğular şəhəri olan Şuşanın azad edilməsi idi. Noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildi və bu qələbə Azərbaycan tarixinin ən böyük qəhrəmanlıq nümunələrindən biri kimi yadda qaldı. Şuşamızın azad edilməsi, bir tərəfdən Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini, digər tərəfdən isə əsgərlərimizin Vətən sevgisini və qətiyyətini bir daha nümayiş etdirdi.

Vətən müharibəsinin hər bir qəhrəmanı tarixdə əbədi yaşayacaqdır. Onların cəsarəti, döyüşlərdə göstərdikləri şücaət Azərbaycanın hər bir vətəndaşı üçün örnəkdir. Onlar Vətən uğrunda şəhid olaraq Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda tarix yazdılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Biz bu qələbəni şəhidlərimizə borcluyuq. Onların qanı yerdə qalmadı və heç vaxt da qalmayacaq".

Vətən müharibəsinin qəhrəmanları Azərbaycanın qürur mənbəyidir. Onların şücaəti, döyüş meydanında göstərdikləri fədakarlıq, ölkəmizin gələcək nəsilləri üçün bir qəhrəmanlıq məktəbi olacaqdır. Bu qəhrəmanların adı təkcə tarixi kitablarda deyil, həm də xalqımızın qəlbində əbədi yaşayacaq.

Bu torpaqda doğulan hər bir insanın ruhunda bir qəhrəman yatır. Vətən sevgisi ilə böyüyən, tarix yazan oğulların göstərdiyi şücaət, döyüş meydanında axıdılan qan, yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının yaddaşında əbədi olaraq qalacaqdır. Onların igidliyi, vətənpərvərliyi bizə daim yol göstərəcək və onların ruhu, bu torpağın hər bir zərrəsində yaşayacaqdır. Bu müqəddəs Vətən bizə, onların əmanətdir və bu əmanəti qorumaq isə hər birimizin borcudur.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Ermənistanın keçmişindən ciddi dərs çıxarması gələcək taleyi üçün daha yaxşı olar

Azərbaycan Silahlı Qüvvələrinin İkinci Qarabağ müharibəsindəki Qələbəsi hərb tariximizə qızıl hərflərlə yazıldı. Uzun illər Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqlarımızı 44 gün ərzində düşməndən təmizləmək Azərbaycan Ordusunun döyüş hazırlığının, əzminin, şücaətinin və qəhrəmanlığının nümunəsi idi. Burada yüksək əhvali-ruhiyyə və döyüş hazırlığından əlavə, müasir silah-sursat və texnika ilə təchizat da qeyd olunmalıdır. Otuz il ərzində Ordumuzun hərbi potensialının ilbəil artırılması döyüş meydanında qısa müddətdə Qələbənin qazanılmasında töhfəsini verdi. Silahlı Qüvvələrimiz Vətən müharibəsində ənənəvi taktikanın əvəzinə, düşmənin uzun illərdir qurduğu istehkamların yarılması üçün ərazinin relyefinə uyğun olaraq tətbiq etdiyi üsul və manevrlər dünyanın aparıcı hərbi araşdırma mərkəzləri tərəfindən bu gün də öyrənilir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında hərbi ekspert Azər Bayramov söyləyib.

Ekspert bildirib ki, müharibənin başa çatmasına baxmayaraq, Azərbaycan Ordusu arsenalını müasir hərbi texnikalarla gücləndirməyə davam edir, bu istiqamətdə fəaliyyətlər həyata keçirir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq yeni komando birliklərinin yaradılmasına başlanılması 44 günlük savaşdan sonrakı bir çox əməliyyatların uğurla yekunlaşmasına ciddi təsir göstərdi. Bu, dövlətimizin başçısının uzaqgörənliklə verdiyi qərarların strateji əhəmiyyətə malik olduğunu növbəti dəfə sübuta yetirdi.

"İkinci Qarabağ müharibəsindən sonra ərazilərimizdə qalmış separatçılar və qanunsuz silahlı birləşmələr mütəmadi olaraq terror-təxribat fəaliyyətlərini davam etdirirdilər. Bu səbəbdən də ermənilərin təxribatlarının qarşısının alınması məqsədilə təhdid törədən strateji mövqelərin təmizlənməsi əməliyyatları həyata keçirilirdi. Ordumuz ilk olaraq Fərrux dağını, sonra Kəlbəcər-Laçın istiqamətində bir çox yüksəklikləri nəzarət altına aldı. Həmçinin aparılan "Sarıbaba-Qırxqız", "Qisas" əməliyyatları da düşmən təhdidlərini böyük ölçüdə zərərsizləşdirdi. Digər hərbi-strateji uğurlarımız kimi, Laçında sərhəd-buraxılış məntəqəsinin qurulması da 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirləri zamanı ölkəmizə ciddi üstünlüklər qazandırdı.

Yeni yaradılan hərbi birliklərin döyüş hazırlığının qısa zaman ərzində yüksəldilməsi bir sutkadan da az davam edən əməliyyatlarda Azərbaycan Ordusunun mütləq Qələbə qazanmasına imkan verdi. Vətən müharibəsindən sonra Ermənistanın Qarabağda qalan terrorçuları silahlandırması, onlara təlimlər keçməsi qanunsuz silahlı birləşmələrə heç bir kömək etmədi. Qanunsuz silahlı birləşmələrin ciddi silah-sursat təchizatına baxmayaraq, Azərbaycan Ordusu arsenalındakı yüksək dəqiqlikli silahlardan məharətlə istifadə etməklə, eyni zamanda, hərbi birliklərimiz yüksək peşəkarlıq və döyüş hazırlığı nümayiş etdirməklə düşməni pərən-pərən saldı. Döyüşün ilk saatlarında düşmənin əsas texnikaları sıradan çıxarıldıqdan sonra hərbçilərimiz unikal taktika və manevrlər nəticəsində terrorçuları təslim olmağa məcbur etdilər", - deyə hərbi ekspert vurğulayıb.

A.Bayramov əlavə edib ki, Ermənistanın havadarları revanşistlərin ruhlandırılması, bu ölkəyə hücum silahlarının verilməsi ilə hansısa müsbət nəticəyə nail ola bilməyəcəklərini anlamalıdırlar. Bu günə qədər Ermənistana göstərilən hərbi və maddi yardımların ona kömək etmədiyini 4 ilə yaxın müddətdə bütün dünya gördü. Ona görə də Ermənistanın keçmişindən ciddi dərs çıxarması gələcək taleyi üçün daha yaxşı olar.

*Tarix yazan oğullar*

# Şəhidlik zirvəsinə ucalan igid

Vətənimizin tarixinə yazılan Zəfər günü xalqımızın qəhrəman, vətənsevər, polad iradəli övladlarının həmrəyliyi, yenilməz birliyi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəlik qabiliyyəti ilə yazıldı. Tarixi qələbənin əldə edilməsində Müzəffər Ali Baş Komandan hər bir əsgərin, zabitin, ölkə vətəndaşının əvəzsiz xidmətini yüksək qiymətləndirdi.

Həyatını Vətənin müdafiəsinə həsr edən kapitan Hikmət Şubay oğlu Hacıyev Azərbaycan zabiti adını həmişə şərəflə daşıyıb, Vətənə xidmətdən qürur duyub. O da tarixi Zəfəri qazananların sırasında olub. Onun haqqında silahdaşları, yaxınları bildirirlər ki, Hikmət Vətənə, xalqa hədsiz sədaqəti olan, geniş dünya görüşünə malik vətənpərvər bir zabit kimi tanınırdı. 7 dekabr 1984-cü ildə Şəmkir şəhərində hərbçi ailəsində anadan olub. Onda Hacıyevlər ailəsinə gözaydınlığı verənlər onun Vətənə, xalqa ləyaqətli oğul olmasını arzu ediblər.

Hikmət 1991-ci ildə Məhəmməd Füzuli adına tam orta məktəbin birinci sinfinə daxil olub. Uşaqlıq, yeniyetməlik çağları qanlı-qadalı müharibə illərinə düşən Hikmət çalışqan, intizamlı şagirdlərdən olub. Həmişə əla qiymətlərlə oxuyub. Bilik yarışlarında, müsabiqələrdə fəal iştirak edərək fəxri fərmanlar, mükafatlar alıb.

1992-ci ildən Azərbaycan Ordusu sıralarında xidmət edən atasının zabit həyatı ona təsirsiz ötüşməyib. Onda



hərbçi olmaq istəyi yaranıb. Atası Birinci Qarabağ müharibəsində iştirak edib. Hikmət müharibə dəhşətlərinin, ağrılı-acılı günlərin şahidi kimi böyüyüb. Atası cəbhə bölgəsindən geri dönəndə sevincinin həddi-hüdudu olmayıb. Həmişə atasının cəbhə haqqında söhbətlərinə diqqət kəsilib. O Vətənimizə qarşı elan olunmamış müharibənin törətdiyi dəhşətlərə biganə qala bilmirdi. 5-ci sinifdə oxuyanda müəllimlərinin "Kim hərbçi olmaq istəyir?" sualına ilk cavab verən də Hikmət olub. Atası kimi zabit olub, Vətənə xidmət edəcəyini bildirib. 1999-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Kursant formasını geyindiyi gün çox qürurlanıb. Hərb sənətinin ilkin sirlərini dərindən öyrənməyə çalışan Hikmət nümunəvi kursantlardan olub. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olub. Təcrübəli zabitlərdən seçdiyi peşənin sirrlərini öyrənmək üçün ilk günlərdən fəallıq göstərib. Təlimlərdə fərqlənib. Ulu Öndər Heydər Əliyevin bir müdrik kəlamını o da unutmayıb: "Zabit peşəsi ən şərəfli peşədir. Bu peşəni seçənlərə xalqımız həmişə minnətdar olacaqdır".

Hikmət Hacıyev ali hərbi məktəbi bitirərək "leytenant" rütbəsi aldığı günün qürurunu heç zaman unutmayıb. Atası kimi Vətənə xidməti hər şeydən uca tutan Hikmət həmişə göstərilən etimadı doğruldub. Tabeçiliyindəki şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik ruhunun yüksəldilməsinə xüsusi diqqət yetirib. Xidmətini 2007-ci ildən cəbhə bölgəsində davam etdirib. Burada da vətənpərvər, fədakar zabit kimi tanınıb. Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanaraq, düşmən təxribatlarının dəf edilməsində yaxından iştirak edib, komandanlığın rəğbətini qazanıb. Həmişə Vətənə, xalqa sədaqətli xidməti ilə seçilərək göstərilən etimadı doğrultmağa çalışıb. Rumıniyada, Bolqarıstanda keçirilən təlimlərdə Silahlı Qüvvələrimizi ləyaqətlə təmsil edib. Fəxri fərmana, diplomlara layiq görülüb.

Xidmətini yenidən cəbhə bölgəsində davam etdirən Hikmət "N" hərbi hissəsinə bölük komandiri təyin olunur. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin həmişə yüksək olmasına çalışıb. Komandirlik etdiyi şəxsi heyət qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirib. Onlar Vətən torpaqlarının işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrini yerinə yetirməyə həmişə hazır olduqlarını qətiyyətlə bildiriblər.

2020-ci il sentyabrın 27-də genişmiqyaslı təxribatlar törədən Ermənistan ordu hissələri torpaqlarımıza yenidən hücum etdi. Şəhər və kəndlərimiz, qəsəbələrimiz atəşə tutuldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev düşmən hücumlarını dəf etmək, işğalda olan torpaqlarımızı azad etmək üçün əks-hücum əmri verdi. Ordumuz ilk günlərdən düşmənin ərazilərimizdə yaratdığı istehkamları, sədləri keçərək torpaqlarımızı işğaldan azad etməyə başladı. Cəbhə boyu ərazilərdə düşmən qüvvələrə sarsıdıcı zərbələr vurulur, döyüş mövqeləri, atəş nöqtələri, istehkamlar məhv edilirdi. Həmin günlər kapitan Hikmət Hacıyevin xidmət etdiyi hərbi hissə də Füzuli bölgəsində döyüşürdü. Kəndləri, yaşayış məntəqələrini düşmənlərdən təmizləyirdilər. Qarşıya qoyulan döyüş tapşırıqları qələbə ilə yerinə yetirilirdi. Növbəti döyüş zamanı kapitan Hikmət Hacıyev ağır yaralanır. Həkimlər onun həyatını xilas edə bilmir.

Ölümündən sonra kapitan Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə 2-ci dərəcəli "Rəşadət" ordeni və "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olunub. Şəmkir şəhərində yaşadığı küçə indi onun adını daşıyır. Oğlu Bayram 5-ci sinif şagirdidir, qızı Alya bu il məktəbə gedəcək. Onlar Vətən uğrunda şəhidlik zirvəsinə ucalan ataları ilə həmişə qürur duyacaqlar...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Saçları bəyaz ana, İbrahim qəlbimizdədir!



Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2023-cü ildə Xankəndi şəhərində çıxışı zamanı demişdir: "Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında başəyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir".

Qarabağ həsrətini, ana Vətənimizin bir parçası olan yurd nisgilini övladlarımıza da ötürdük. Onlar Qarabağı görmədən sevdilər: şəkillərlə, videokadrlarla. Bir də təbii ki, hər birimizi ana yurda bağlayan tellərlə. Yurdumuzu viran qoyan düşmənə qarşı nifrət hissi, düşmən tapdağı altında inləyən torpağın səsi güclü, vətənpərvər bir nəsil yetişdirdi. Gün-gündən qüdrəti artan ordumuzun sıralarında xidmət etmək həvəsi neçə-neçə gəncin yolunu hərbidən saldı. Məqsədi səbiridi: Vətən torpaqlarını işğaldan azad etmək, gözü yaşlı qalan yaşlılarımızı yurduna qovuşdurmaq, haqq-ədaləti bərpa etmək.

Malikəjdər Qasımovun ailəsində ikinci oğul övladı torpaqlarımızın işğal olunduğu, torpağa şəhid verdiyimiz bir zamanda dünyaya göz açdı. 1992-ci il yanvarın 29-da Əliabad qəsəbəsində doğulan körpəyə İbrahim adı verildi. Maral ananın sonbeşiyi olan İbrahim 1998-2009-cu illərdə təhsil aldığı Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbdə biliyi, intizamı ilə seçildi. Müəllimlərinin sevimlisinə çevrildi. Azərbaycan Kooperasiya Universitetində mühasibat uçotu ixtisası üzrə təhsil aldı. Şahbuzda hərbi xidmətini başa vurandan sonra öz ixtisası üzrə Bakı şəhərində işləməyə başladı. Niyyətin hara, mənzilin ora demiş atalar. Torpaqlarımızın işğal altında olması ilə barışmayan İbrahim qəti qərarını verir. Hərbçi olacaqdı. Bu niyyətlə 2019-cu ildə "Ehtiyat zabit hazırlığı" kursunu bitirir və leytenant rütbəsi ilə Qoranboyda xidmətə başlayır. Ürəyi Vətən sevgisi ilə döyünən İbrahim id-



mana böyük həvəs göstərərək gücünə güc qatır. Və o günü səbirsizliklə gözləyir...

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsində iştirak etmək, torpaqlarımızın düşmən işğalından azad olunmasında iştirak etmək leytenant İbrahim Qasımova da nəsib olur. Həssas ürəkli, zərif Maral ana narahat olmasın deyə ondan müharibədə iştirakını gizlədən İbrahim "Suqovuşanın azad olunmasına görə" medalı ilə Naxçıvana qayıdır. Atası Malikəjdər kişi qürur duyur. Belə bir zəfərdən sonra qəlbi dağa dönən Maral ana qohumları, dost-tanışları başına yığıb oğluna təmtəraqlı toy edir. 2022-ci ildə İbrahimin Malik adlı oğlu dünyaya gəlir. Bu, İbrahim üçün ikinci böyük sevinc idi. "Oğlum böyüyəndə atası ilə qürur duyacaq",-deyirdi. Həmin il İbrahim Qasımova baş leytenant hərbi rütbəsi verilir. İgid İbrahim "Komando" kursunu keçərək xidmətini davam etdirir.

Təqvim 2023-cü il sentyabr ayını göstərir. Məzuniyyətdə olan İbrahim ailəsi ilə birlikdə Naxçıvana-ana yurduna gəlib. Oğlu İbrahimin doğum gününü atası, anası qardaşı ilə birgə qeyd etmək üçün. Lakin... Vətən çağırır. İbrahim hər şeyə rəğmən getməlidir. Oğlunun doğum gününü xidmət yerində keçirməli olur. Ermənistan ordusunun qalıqları və Qarabağ iqtisadi zonasında qeyri-qanuni erməni silahlı dəstələri bir daha "şansını" sınayır. Lakin Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində öz sözünü demiş, gücünü bütün dünyaya göstərmişdi. Bu bir haqq savaşı idi. Sonuna qədər gediləcəyi şəksiz idi. 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi antiterror əməliyyatı zamanı Ermənistan ordusunun tör-töküntülərinə və qeyri-qanuni erməni silahlı dəstələrinə ağır zərbələr vurulur. Düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılır. Və düşmən təslim olur. Antiterror əməliyyatı zamanı hərbi qulluqçularımız ağır relyef və düşmən tərəfindən uzun illər ərzində qurulan istehkamların mövcudluğu şəraitində böyük igidliklər göstərirlər.

Həyat yoldaşı Vəfa Qasımova deyir ki, İbrahimin sonuncu zəngi 20 sentyabrda səhər saatlarında oldu. Həmin vaxt valideynləri ilə də əlaqə saxlayıb danışmışdı. Sanki bizimlə vidalaşmaq üçün zəng etmişdi. Üstündən bir neçə saat keçəndən sonra İbrahimin şəhadət xəbəri gəldi.

Maral ana: "Mən onu ölməz bilirdim, o qədər gücə, dəmir iradəyə malik idi ki... Düşünürdüm ki, o bir gücdür, silahın ona gücü çatmaz. Naxçıvana gətirib torpağa verən anadək ölümünə inanmırdım".

Baş leytenant İbrahim Qasımov ölümündən sonra "Vətən uğrunda" medal və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Saçları bəyaz ana, doğru düşünmüsən. İbrahim ölməyib ki. İbrahim aramızdadır, İbrahim qəlbimizdədir. İbrahim bizdən ucalardadır. O ucalığa sonsuz sayğı və ehtiram hissi ilə.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir.**

**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

**Mövzu: Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə isə müvəffəqiyyətin əsas prinsipi və şərtidir**

***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin İntizam Nizamnaməsindən istifadə etməli, bölmədə hərbi intizamın vəziyyətini və xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.***

### Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir

Güclü ordunun əsası hərbi intizamdır. Hərbi intizamın mahiyyəti nizamnamə və digər qaydalara riayət etməklə ciddi və şüurlu olmalıdır. Azərbaycan Ordusu Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Bu müqəddəs vəzifələri yerinə yetirmək üçün ordumuz daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Ordu Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Hərbi qulluqçular bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət etməlidirlər. Şüurlu hərbi intizam - yüksək döyüş hazırlığı və döyüş qabiliyyəti ordunun əsas şərtidir.

Bununla yanaşı, orduda Hərbi And içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı məhrumiyyətlərə və çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Ordusunda hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Ordusunda hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır.

İntizam Nizamnaməsinin 2-ci maddəsi də hər bir hərbi qulluqçudan hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsini tələb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı aşağıdakı kimi müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir."

Hərbi intizam hər bir hərbi qulluqçudan aşağıda göstərilənləri tələb edir:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi Andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinlik və mərhumiyyətlərinə mətinliklə tab gətirməyi, hərbi borcunu yerinə yetirərkən öz qanını və həyatını belə əsirgəməməyi;
- hərbi və dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və dürüst olmağı, hərb işini vicdanla öyrənməyi, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi;
- vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi.

Hər bir hərbi qulluqçu bilməlidir ki, yüksək hərbi intizama nail olmaq olar:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaqla;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O, öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur:

- Azərbaycanın mənafeyini qorusun;
- onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin;
- Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi Anda müqəddəs, sarsılmaz surətdə riayət etsin;
- intizamlı, vicdanlı, dürüst və cəsarətli olsun; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin.

### Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir

Döyüş - müharibədə qələbə qazanmağın yeganə vasitəsidir. Döyüşdə düşmənin darmadağın edilməsi və qələbə bütün silah növlərinin güclü zərbələri, zərbələrin nəticələrindən vaxtında istifadə etmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkətləri ilə əldə edilir.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın, zəif icraçılığın, hərbi andın və müharibə dövrünün qanunlarının tələblərinin geri çəkilməyin qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi aşağıdakılarla bağlıdır:

- hərb işin inkişaf etməsi, hərbi hissələrin yeni tipli silahlarla və döyüş texnikası ilə təchiz olunması, döyüş aparma üsullarının kökündən dəyişməsi ilə;
- müasir silahların bir çox növlərinin kollektiv surətdə istifadə olunması, həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən çox asılılığı;
- hərbi hissələrin yeni müasir silah növləri ilə təhciz edilməsi, bu silahlardan istifadə etmə üsul və qaydalarının öyrənilməsində mövcud olan çətinliklərlə bağlı gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi ilə.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi etnik təmizləmə ilə nəticələndi. Həmin illərdə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövlət idarəetmə sahəsində səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə və onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli xahişilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə ordumuzun yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ulu Öndər Heydər Əliyev 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Azərbaycan Ordusunun hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində Ulu Öndər Heydər Əliyevin dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq və dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

2024-cü ilin birinci yarım tədris dövrünün yekunları bir daha göstərir ki, möhkəm hərbi intizam və qayda-qanun hərbi hissə və bölmələrdə yüksək döyüş hazırlığının əldə olunmasının əsas şərtidir. İkinci yarımillikdə isə qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün döyüş hazırlığının yüksəldilməsi, öz vəzifə borclarının şüurlu dərk edilməsi və onların vicdanla yerinə yetirilməsi hər bir hərbi qulluqçudan tələb olunur. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel zəfəri, 2018-ci ildə Cünnüt qalibiyyəti və eləcə də 2020-ci il sentyabr ayında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı "Vətən müharibəsi" və 2023-cü ilin sentyabr ayında Qarabağ iqtisadi rayonunda apardığı bir günlük antiterror əməliyyatı beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsini şərtləndirən amillər əsgərlərimizin vətənpərvərliyi və yüksək döyüş ruhu ilə yanaşı, həm də ordumuzun yüksək hərbi intizama malik olmasıdır.

Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə altında öz şərəfli missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Ordusunun daha da güclənməsi müasir silahlarla təchiz olunması haqqında demişdir: "Bundan sonra da Ordumuzun inkişafı üçün ciddi addımlar atılacaq. Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək".

Ordumuzun döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amil Azərbaycan Ordusunun yeni müasir texnika və silahlarla təhciz edilməsi, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasıdır. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev mübariz əzmi ilə dövlətimizin müdafiə potensialının artırılması və ordumuzun daha da güclənməsi naminə işlər görərək, öz diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şəhidlərdi ruhumuzun bayrağı!..

Səid Rəşidzadə 1990-cı il yanvarın 28-də Füzulinin Horadiz şəhərində anadan olmuşdu. Bakıda şəhid S.Yolçuyev adına orta məktəbi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirmişdi...

"Dövlət Vətən deməkdi, Vətən - torpaq. Torpağı qorumaq dövləti, dövləti qorumaq Vətəni qorumaqdı. Torpaqalarımızı işğaldan azad edəcəyik də, qoruyacağıq da. Torpaq olmayandan sonra Vətən də yoxdu, Vətən olmayandan sonra biz nəyə lazımıq...", - Səid tay-tuşlarına da, xidmət yoldaşlarına da, döyüşçülərə də belə deyərmiş...

Neçə 30 illər keçəcək, babalar nəvələrinə gerçək nağıllar danışanda deyəcəklər ki, Səid vardı, igid idi, cəsur idi, Vətəni, torpağı sevən oğul idi...

2016-cı ilin Aprel döyüşlərində Səid Rəşidzadə də iştirak etmişdi. "Biz qəhrəman olmaq üçün döyüşmürük, qəhrəmanlıqla döyüşürük", aprelin 4-də dan yeri söküləndə, döyüşə bir nəfəs dərimiycə qalmış belə demişdi. General-mayor Polad Həşimov təbəssümlə Səidə baxmışdı. Bu, sözlə ifadə edilməyən təşəkkürüydü. Döyüş ərəfəsində əsgərlərin qələbə ruhunu ovxarlayan kəlamlara görə komandir minnətdarlığıydı...

Səid sonralar öz döyüşlərindən danışmazdı, əsgərlərin döyüşlərindən danışardı, "mən" deməzdi, "biz" deyərdi. "Aprel döyüşləri son döyüşümüzdən əvvəl qazanılmış qələbədi...", - Aprel qələbəsini son döyüşümüzün ərəfəsi adlandırırdı...

Döyüşlər azca səngiyəndə Arif Nihat Asyanın "Bayraq" şeirini xatırlayardı. Ürəyinin başında gəzdirdiyi bayrağımızı öpüb gözlərinin üstünə qoyardı. Bayrağımız Azərbaycan Ordusunu Zəfərə aparırdı...

Bayraqlarımız işğaldan qurtuluşun carçısı olacaqdı, Şuşada, Cəbrayılda, Füzulidə, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Ağdamda, Laçında dalğalanacaqdı. Əhdi vardı Səidin. Qaliblər dalğalandıracaqdı, qaliblər sırasında "Bayrağım - varlığım, bəxtiyarlığım!" deyən Səid dalğalandıracaqdı. Səidlər bayrağımızın işığını gözlərinə köçürmüşdü, bu işıq onlara "Qəzan mübarək, igid!" deyirdi, onları döyüşlərə Vətən uğurlayırdı. Onlar da bilirdilər ki, qazavata bayrağın işığıyla gedənlər məğlub olmur. Ruhunun can köynəyi bayraq olanlar döyüşlərdəydi. Döyüş-döyüş qələbəyə yaxınlaşırdılar.

Füzuli istiqamətində döyüşürdülər...

Hər döyüşü son döyüş bilib döyüşürdülər. "Şəhidlərin ruhu da sıramızdadı. Şəhidlərin adından da döyüşürük", - Səid belə deyərdi. Onda döyüşçülər gözucu göy üzünə baxardılar, sonra komandirlərinə. Bu baxışlar inamıydı, sevgiydi, sədaqətiydi, bir də döyüşqabağı məsləhət, tövsiyə istəyi. Səidin sağ əli Elgünün, sol əli Raqifin çiyninə enmişdi. Səssizlikdə Səid döyşçülərə, döyüşçülər qarşıdakı yüksəkliklərə baxmışdılar. Döyüş əzmi vardı baxışlarda, bir də qələbə ruhu. Döyüşçülərin döyüş əzminin, qələbə ruhunun kölgəsi qarşıdakı yüksəkliklərin sinəsinə sıxırdı.

Böyük Pirəhmədlini azad etmişdilər. Döyüş səngiyəndə Səid "Sənin ata yurdunu işğaldan azad etdik, ay ata!..", - pıçıldamışdı.

Esse

***__Mövqe qələbəsi qazanmışdılar. Əsə-əsə yüksəkliyə tələsən həlim yelin içində ayaq saxlayıb bir hovurluğuna nəfəs dərirdilər. Müharibədə bir döyüşün sonluğu növbəti döyüşün başlanğıcıdı. Bir azdan başlayacaq döyüşün ovqatı qınından sıyrılmış qılınc kimiydi. Anlar ağırlaşmışdı elə bil, ötüşmürdü. Səid iri bir daşa dirsəklənmişdi. Baxışları qarşı yüksəklikdən üzülmürdü. Ürəyinin üstünə qoyduğu əlində ilahi bir hərarət hiss edirdi. Döyüşlər başlayandan bəri sinəsində gəzdirdiyi bayrağımızın hərarətini işğaldan azad edəcəkləri torpaqların örtüyü bilirdi. Döyüş-döyüş həmin günə yaxınlaşırdılar...__***

Neçə il əvvəl söhbətləşəndə "Bayrağa sevgi bütün sevgilərdən ötədi, bayrağa sevgi Vətənə sevgidi", - demişdi. Tabor komandiri kursant Səid Rəşidzadənin cavabını bəyənmişdi. Kursantlara "Bayrağımızı Səid kimi sevin. Bu sevgi sizin Vətən sevginizin hilalı olsun", - demişdi. Az sonra Səid dostlarının əhatəsində bir misra pıçıldamışdı: "Vətənə sevgidi bayrağa sevgi...". İndi, aradan illər keçəndən sonra arzuladıqları döyüşlərdəydilər, döyüş ərəfəsində həmin misra düşmüşdü yadına. Əlini ahəstəcə sol döşünün üstündə gəzdirdi. Oktyabrın 10-da bir nəfəs dərimi müddətiycə çəkən vaxtda Səid döyüşçülərə ötən əsrin əvvəllərində Sarıqamış döyüşündən danışdı, Çanaqqala döyüşündən danışdı. Bu döyüşlərin sonunda mehmetçiyin qazandığı qələbədən danışdı, bugünkü Türkiyənin o qələbədən doğulduğunu dedi. Tarixin gedişini dayandırmaq üçün dedi, işğalın bu gününü sabahlara bağlamağa qərarlı olanların niyyətini dağlamaq, o bağları yandırmaq üçün dedi. Onu da xatırlatdı ki, eyni kökdən gələn döyüş ruhunun sərhəddi olmur. Biz də torpaqlarımızı işğaldan xilas edəcəyik. Səid "Xoş o döyüşçüyə ki, döyüşündə şəhidlərin ruhunun şəhidliyə ünvanlanan qayibanə duasını eşidir: "Qoluna qüvvət!". Döyüşçüləri döyüşə həm də Səidin dediyi kəlmələr uğurlayırdı.

Döyüşçülər səngərdən döyüş üzünə çıxmışdılar...

Düşmənin Hadrut istiqamətində əks-hücumunun qarşısı qətiyyətlə alındı. Şişqayanın düşməndən azad edilməsi əmri verilmişdi. Meşəliklə yarım kilometrəcən irəliləmişdilər. Yeddi nəfəriydilər: bölük komandiri kimi baş leytenant Səid Rəşidzadə, leytenant Raqif Xanışov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Xalid Abdullayev, İqbal Qurbanov, Yadigar Əsgərzadə və əsgər Əmrah Səfərli. Düşmənlə təmas döyüşü çox çəkmədi. Döyüşə-döyüşə irəli gedirdilər. Şişqayanı ermənilərdən qurtarmağa. Bu döyüş bölüyün yeddi döyüşçüsünü Şişqayanın qurtuluşuna aparırdı...

Düşmənin sığındığı yüksəklikləri çığnayıb keçəcəkdilər. Bu qətiyyətin sonunda qələbənin işığı vardı, qələbə vardı, o işıqda bayrağımızın ucalıqlarda dalğalanması vardı. Bir də Böyük Qələbəyə aparan yolu nişan verəcək yol vardı. Bu yola çıxmaq üçün döyüşürdülər. Döyüşün son güllısindən sonra bu döyüşə döyüşlərin ən gözəli, o yola yolların ən düşərlisi deyəcəkdilər...

Döyüşə-döyüşə bir-birinə söykəkli meşəli təpəlikləri keçdilər. Hər təpəlik uğrunda döyüşdülər. "Sürətli hücum, sürətli döyüş, sürətli qələbə!", - döyüşün başlanğıcında Səid döyüş əmrini tamamlayan döyüş göstərişi vermişdi; belə döyüşdülər...

Müqavimət göstərə bilməyib yüksəkliklərdən geri çəkilən düşməni təqib edirdilər. Meşəliyi çıxaçıxda kürəyi döyüşçülərinin nəfəsiylə isinən komandirin - baş leytenant Səid Rəşidzadənin 15-20 addımlığına bir mərmi düşdü. Azca sağa meyillənib atışı davam etdirdi. Leytenant Raqif Xanışovun harayını ikinci mərmi çiliklədi. Mərmilər hücumu dayandıra bilmədi. Komandirin də döyüşməsi döyüşçülərin qələbə ruhunu coşdurmuşdu. Sonuncu təpəlikdə bir qədər müqavimət göstərən düşmən davam gətirə bilmədi. Geri çəkilə-çəkilə atışmağa heyi qalmamışdı...

Açıqlıqdaydılar. Düşmən qaçıb dərədə gizlənmişdi. Səidin əmriylə dərəyə bir-neçə qumbara atdılar. Düşmənin öləni öldü, qalanı Hadruta tərəf qaçdı...

Şişqayanı azad etmişdilər. Daha döyüş texnikalarımız döyüşə qoşula biləcəkdi. Təpəliklər düşməndən azad edilmişdi. Meşəlik arxada qalmışdı. Açıqlıqdaydılar. Hadrut, Şişqaya göründü. Şişqayada ermənilərin bayrağı göründə Səidin qaşları çatıldı. Sol əli avtomatın qundağını bədəninə, sağ əli köksünü ürəyinə sıxdı. Gözucu ermənilərin bayrağına sarı baxdı. Qətiyyətlə "Orda bizim bayrağımız dalğalanacaq, bizim!", - dedi. Dərəni keçdilər. Döyüşə-döyüşə erməni bayrağına yaxınlaşırdılar...

Mövqedə 50-60 erməni döyüşçüsü müqavimət göstərməyə çalışırdı. Ağır döyüş gedirdi. Səkkiz döyüşçü 50-60 düşməni atışla mövqedən çıxmağa məcbur etməli idi. Etdi...

Beş döyüşçümüz şəhid oldu...

Səid düşmənin bayrağını layiq olduğu kimi endirdi, layiq olduğu yerə atdı. Bayrağımızı sinəsindən çıxatdıb öpdü. Gözdolusu baxdı bayrağımıza. "O ucalıq sənin yerindi...", - dedi. Dikəlmək istəyəndə snayper gülləsi dəydi Səidə. Dizə çökdü, yıxılmadı. Bayrağımızı köksünə sıxdı ki, torpağa düşməsin. Son nəfəsində bayrağımızı bir də öpdü. Əlində dalğalanan bayrağımız Səidin üstünə sərildi. Azca dikəldi, torpağı qucaqladı...

İndi minlər deyir ki, şəhidlərdi ruhumuzun bayrağı!..

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmiş baş leytenant Səid Rəşidzadə tarixin cığırdaşı oldu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Kiyev Vaşinqtonu F-16 pilotlarının təlim proqramını genişləndirməyə çağırıb



Kiyev F-16 qırıcıları üçün pilot və texniklərin ABŞ-da təlim proqramını genişləndirməkdə maraqlıdır.

Bunu Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ Konqresinin Nümayəndələr Palatasının nümayəndə heyəti ilə görüşündə deyib.

"Prezident əlavə hava hücumundan müdafiə vasitələrinin alınmasının vacibliyini, eləcə də ABŞ-da ukraynalı pilot və texniklər üçün təlim missiyalarının genişləndirilməsi zərurətini qeyd edib", - deyə dövlət başçısının saytında bildirilib.

Avqustun 4-də Volodimir Zelenski Qərb müttəfiqlərinin F-16-ların ilk partiyasını Kiyevə verdiyini təsdiqləyib. Britaniyanın "The Economist" jurnalının yaydığı məlumata görə, Ukrayna 10 ədəd F-16 alıb və ilin sonunadək onların sayı 20-yə çatacaq. Ümumilikdə isə Ukraynaya zamanla 79 belə qırıcı verilə bilər.

## Hindistan Çinlə sərhəd yaxınlığında hərbi təlimlərə başlayıb



Hindistan Şərqi Ladax regionunda Çinlə sərhəd yaxınlığında genişmiqyaslı hərbi manevrlərə başlayıb.

Hindistan Müdafiə Nazirliyinin məlumatına görə təlimlərə silahlı qüvvələrin şimal komandanlığının zərbə ordusu korpusunun tank, artilleriya və piyada hissələri cəlb olunub. Manevrlərin məqsədi ən müasir silahlardan istifadə etməklə qoşunlara yüksək dağlıq ərazidə döyüş əməliyyatlarının yeni konsepsiyalarını aşılamaqdır.

Təlimlər Ladax regionunda Çinlə Hindistan arasında davam edən gərginlik və hər iki ölkə qoşunlarının sərhəd bölgələrindən çıxarılması istiqamətində davam edən səylər fonunda keçirilir.

Himalay dağlarında Hindistan və Çin arasında demarkasiya edilmiş sərhədin olmaması səbəbindən həmin bölgə onilliklər ərzində davam edən gərginlik mənbəyinə çevrilib. Pekin və Dehli arasında münasibətlər 2020-ci ilin mayında Şərqi Ladax regionunda silahlı qarşıdurma başlaması ilə kəskin şəkildə pisləşib.

## İsrail ordusu Təl-Əvivə əlavə xilasetmə bölmələri yerləşdirib



İsrail müdafiə ordusunun komandanlığı Təl-Əvivdə və ölkənin digər mühüm şəhərlərində əlavə xilasetmə bölmələri yerləşdirib.

"The Jerusalem Post" qəzeti xəbər verir ki, axtarış-xilasetmə qrupları və xüsusi texnika paytaxtdakı "Yad Eliyahu" stadionunda yerləşdirilib. Bu, İran tərəfindən mümkün hücuma hazırlıq məqsədi daşıyır. Yaşayış binaları vurulduğu təqdirdə həmin bölmələr dağıntıların təmizlənməsi və xilasetmə əməliyyatlarını həyata keçirəcək.

Xilasedicilərin əlavə qüvvələri Hayfa, Krayot, Eylat və digər şəhərlərə də göndərilib.

## İraqda ABŞ hərbçilərinin olduğu baza atəşə tutulub



İraqın qərbindəki Ənbar vilayətində beynəlxalq koalisiya qoşunlarının istifadə etdiyi Ayn əl-Əsəd hava bazası raket atəşinə tutulub.

Bu barədə "Shafaq News" portalı təhlükəsizlik xidmətindəki mənbəyə istinadla məlumat yayıb.

Məlumata görə, axşam saatlarında Amerika hərbçilərinin yerləşdiyi bazaya azı iki raket atılıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə əlavə abituriyent qəbulu elan edilir

*Milli Müdafiə Universiteti ali təhsilin bakalavriat (baza ali tibb təhsili) səviyyəsi üzrə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə əlavə abituriyent qəbulu elan edir.*

Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildirilib ki, tələblərə cavab verən namizədlər 12 avqust saat 18:00-dək Hərbi Tibb Fakültəsinə (**Ünvan**: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3) yaxınlaşaraq müraciət edə bilərlər.

**Tələblər**:

Dövlət İmtahan Mərkəzi tərəfindən IV ixtisas qrupu üzrə keçirilmiş qəbul imtahanlarında 400 bal və daha yüksək nəticə əldə etmiş, cari ildə ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşı olması.

**Zəruri sənədlər:**

- Şəxsiyyət vəsiqəsinin əsli və surəti;
- Çağırışçının qeydiyyat vərəqəsi;
- 6 ədəd 3x4 formatında fotoşəkil;
- Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Ətraflı məlumat üçün Milli Müdafiə Universitetinin "Çağrı Mərkəzi (*0811 qısa nömrəsi) ilə əlaqə saxlamaq olar.

## *Fiziki hazırlıq*

# "Ordu sıralarına çağırıldıqdan sonra idmana olan marağım sevgiyə çevrildi"

*Azərbaycan Ordusunda xidmət edən hərbçilərimizin fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. Belə ki, fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsi olduğu üçün ordu sıralarında bu məşğələyə xüsusi diqqət ayrılır. Yuxarı komandanlığın tapşırıqlarına əsasən bütün hərbi hissələrdə yeni və müasir idman şəhərcikləri salınır, müasir tələblərə cavab verən və ən son model idman qurğuları ilə təchiz olunan idman otaqları yaradılır.*

Belə ki, "N" hərbi hissəsində olarkən qarşılaşdığımız mənzərə dediklərimizi bir daha təsdiqlədi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nurlan Məmmədovun nəzarəti altında cəsur Vətən müdafiəçilərimiz fiziki hazırlıqlarını artırmaqla məşğul idilər. İlk öncə burada yaradılan səliqəli və geniş əraziyə sahib olan idman şəhərciyi diqqətimizdən yayınmadı. Müxtəlif və çoxlu sayda idman alətləri, basketbol və volleybol üçün ayrılmış meydançalar hər birimizdə xoş təəssürat yaratdı. Məğrur əsgərlərimizə mane olmamaq üçün onları kənardan seyr etdik. Əsgərlər sərbəst şəkildə və bir nəfər kimi verilən tapşırıqları icra etmələri bizləri qürurlandırırdı. Sonra isə hər birimizin diqqətini özündə cəmləyən isə burada idmanın qol güləşi üçün ayrılmış masa oldu. Əsgərlərimiz burada bir biriləri ilə qol güclərini sınayırdılar. Gərgin mübarizə isə əsgər İlqar Paşayev ilə İlkin Kərimov arasında oldu. Onların mübarizəsi bitmək bilmirdi. Lakin bu idmandır və mütləq ki, burada biri qalib gəlməlidir. Çətinliklə də olsa əsgər İlkin Kərimov rəqibini məğlub edə bildi. Məşğələyə ayrılan müddət başa çatdıqdan sonra ilk öncə qalib əsgərə yaxınlaşıb həmsöhbət olduq. Bildirdi ki, bu gücə peşəkar komandirlərinin rəhbərliyi altında mütəmadi olaraq keçirilən fiziki



hazırlıq məşğələsi ilə sahib olub. "Düzdür mülki həyatda idmanla peşəkar məşğul olmasam da ən azından marağım olub. Lakin ordu sıralarına qatıldıqdan sonra idmana olan marağım sevgiyə çevrildi. O sevgiyə ki, heç bir zaman bitməyəcək. Əlbəttə biz bunu üzərimizdə əziyyəti keçən peşəkar və qayğıkeş komandirlərimizə borcluyuq. Bu gün verilən istənilən tapşırıqların öhdəsindən asanlıqla gələ biliriksə bu məhz onların zəhmətidir. Fürsətdən istifadə edərək, bizi peşəkar döyüşçü kimi formalaşdıran komandirlərimizə minnətdarlığımı bildirirəm". Qol gücü mübarizəsində məğlub olan əsgər İlqar Paşayevə yaxınlaşdıq. O da bildirdi ki, bu bir yarışdır. Əlbəttə biri qalib gəlməlidir. Bizim bu mübarizədə əsgər yoldaşım, silahdaşım məndən daha güclü oldu. Lakin bu məni daha da qürurlandırır. Çünki görürəm ki, Vətənimizin necə güclü və qətiyyətli vətənpərvər oğulları var. Düzdür tariximizə qızıl hərflərlə yazılan şanlı Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Hər kəs bilməlidir ki, Azərbaycan oğulları Vətəninin azadlığı və müstəqilliyi üçün istənilən an canından keçməyə bundan sonra da hazırdır".

Məşğələnin rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nurlan Məmmədov dedi ki, gördüyünüz kimi əsgərlərimiz çətinlik çəkmədən istənilən tapşırıqların öhdəsindən asanlıqla gəlməyə qadirdirlər. Onlar alətlərdə həvəslə, yorulmadan məşq edir, idman hərəkətlərini ustalıqla yerinə yetirirlər. Turnikdə dartınma, paralel qollarda enib-qalxma, ipə çıxma hərəkətlərini ustalıqla icra edirdilər. Bu isə onların nizam-intizamlı və güclü olmasından xəbər verir.

Əsgər Nail Əhmədov bildirdi ki, döyüş, mənəvi-psixoloji, atəş hazırlıqlarımızla yanaşı fiziki hazırlığımızı da artırırıq. Hərbi xidmətdən əvvəl idmanla az məşğul olurdum. Dayaqdan dartınma hərəkətində çətinlik çəkirdim. Komandirlərimin və əsgər yoldaşlarımın da dəstəyi ilə hər gün idman saatlarında ciddi məşğul olmağa başladım. Artıq normativə uyğun dartına bilirəm. İnanıram ki, bir az da məşq edib nəticəmi daha da yaxşılaşdıracağam. Xüsusi ilə onu da qeyd etmək istərdim ki, fiziki hazırlığımız bizə döyüş ruhu aşılamaqla bərabər, özümüzə olan inam hissimizi də artırır.

- Döyüş meydanında çevik, möhkəm, dözümlü olmaq və verilən tapşırıqları cəld yerinə yetirmək üçün fiziki hazırlığımız yüksək olmalıdır. Ona görə də fiziki hazırlıq məşğələlərində həvəslə iştirak edirik. Bunlarla yanaşı komandirlərimiz müxtəlif vaxtlarda idman yarışları da təşkil edirlər. Həmin yarışlarda həvəslə iştirak edir, idmanda qazandığımız nailiyyətləri nümayiş etdiririk, - deyə əsgər Riyad İmanov bildirdi.

Digər əsgərlər də öz fikirlərini bizimlə bölüşdülər. Onlar xidmət müddətində yaşanan xoş xatirələrdən, yaddaşlarına ömürlük həkk olunan günlərdən, komandirlərinin peşəkarlıqlarından, onlara göstərilən diqqət və qayğıdan, şəraitlərinin yüksək səviyyədə olduğundan, idmana xüsusi sevgi bəsləmələrindən, Vətənə xidmət etməyi özlərinə namus borcu bilmələrindən və Vətənimizin keşiyində hər an ayıq-sayıq durmalarından söhbət açdılar.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycan taekvondoçusu Paris Olimpiadasında gümüş medal qazanıb



Azərbaycan "Paris-2024" Yay Olimpiya Oyunlarında növbəti medalı qazanıb.

Bu dəfə fəxri kürsüyə taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) qalxıb.

Mübarizəyə səkkizdəbir finaldan başlayan idmançımız ilk görüşündə irlandiyalı Cek Uolleyə qalib gəlib. Ardınca ispaniyalı Adrian Visenteni üstələyən taekvondoçumuz yarımfinalda İtaliya təmsilçisi Vito Akviladan güclü olub.

Finalda Cənubi koreyalı Park Taeçjunu sınağa çəkən Q.Maqomedov ilk hissədə ayağından ciddi zədə alıb. Görüşü davam etdirə bilməyən idmançımız yekunda məğlub elan edilib və gümüş medalla kifayətlənib.

### "Paris-2024": Azərbaycan güləşçisi bürünc medal qazanıb



Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov "Paris-2024" Yay Olimpiya Oyunlarında bürünc medal görüşünə çıxıb.

67 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı qırğızıstanlı Amantur İsmayılovla qarşılaşıb.

Rəqibini 8:0 hesabı ilə məğlub edən H.Cəfərov Olimpiadada 3-cü yeri tutub.

Bu, Azərbaycan güləşçilərinin "Paris-2024" Yay Olimpiya Oyunlarında qazandığı ilk medal olub.

Qeyd edək ki, hazırda Azərbaycanın aktivində beş medal var. Cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) gümüş medala sahib çıxıb. Boksçu Alfonso Dominqes (92 kiloqram) isə finala vəsiqə qazanmaqla ən azı gümüş mükafatı təmin edib.

### "Paris-2024": Azərbaycanın qrup hərəkətləri komandası ilk cəhddən sonra 8-ci sıradadır



Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası "Paris-2024" Yay Olimpiya Oyunlarında halqalarla çıxış edib.

Hakimlərdən 33,850 xal alan Zeynəb Hümmətova, Darya Sorokina, Ləman Əlimuradova, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət kollektiv bu göstərici ilə 14 yığma arasında 8-ci pillədə qərarlaşıb.

Hazırda İtaliya seçməsi 38,200 xalla siyahıya başçılıq edir. Komandalar daha sonra 3 lent və 2 topla da qüvvələrini sınayacaqlar.

### Konfrans Liqası: "Zirə" səfərdə Xorvatiya klubu ilə heç-heçə edib



"Zirə" komandası UEFA Avropa Konfrans Liqasının III təsnifat mərhələsində ilk oyununu keçirib.

"Qartallar" səfərdə "Osiyek"lə (Xorvatiya) qarşılaşıb. Görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.

Hesabı 38-ci dəqiqədə rəqib açsa da, "Zirə"nin heyətində Rafael Utziq əsas vaxta əlavə olunan 6-cı dəqiqədə penaltidən matçın yekun nəticəsini müəyyənləşdirib.

Komandalar arasında cavab oyunu bir həftə sonra Bakının Mərdəkan qəsəbəsində baş tutacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 502
Nüsxə 2000